

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 178 (24.315)

*28 sentyabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar

Sentyabrın 27-də – Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.

Dövlətimizin başçısı və birinci xanım parkın girişində xatirə daşının önünə gül dəstələri qoydular.




Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.






8 Noyabr prospektində inşa olunan Zəfər parkı doqquz hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək. Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq.

Zəfər Muzeyinin əsas girişində yaradılacaq "Dəmir yumruq" simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. "Dəmir yumruq" Zəfərin əsasında dayanan Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.

Parka doğru keçid hissədə 8 Noyabr – Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti – Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq. Azadlıq Bayrağı Meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi 44 bürünc döşəmədən ibarət olacaq.

## Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul edib.

Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı İkinci Azərbaycan Milli Şəhərsalma Forumunun keçirilməsinin müsbət addım olduğunu dedi, ötən il Ağdam şəhərində birinci forumun uğurla təşkil edildiyini vurğuladı. Azərbaycan Prezidenti Zəngilanda keçiriləcək builki forumun gündəliyinin çox zəngin olduğunu bildirdi, bu tədbir çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin arxitektura və şəhərsalma üzrə nazirlərinin toplantısının baş tutacağını qeyd etdi.

Prezident İlham Əliyev Dünya Məskunlaşma Gününün də Azərbaycanda qeyd ediləcəyinin müsbət addım olduğunu dedi.

Maimuna Mohd Şərif ölkəmizin təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyi və verdiyi maliyyə yardımlarını müsbət addım kimi qiymətləndirdiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Təşkilatın fəaliyyətinin Azərbaycan dövləti tərəfindən bundan sonra da dəstəklənəcəyini qeyd etdi.

UN-HABITAT tərəfindən "ağıllı şəhər" konsepsiyasının müxtəlif aspektləri üzrə görülən işlər barədə məlumat verən qonaq ölkəmizin Dünya Məskunlaşma Günü ilə bağlı keçiriləcək tədbirə ev sahibliyi etməsinə görə minnətdarlığını bildirdi. O, Zəngilanda keçiriləcək İkinci Azərbaycan Milli Şəhərsalma Forumunun əhəmiyyətinə toxundu, bu tədbirin urbanizasiya ilə bağlı dünyada gedən proseslərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Bu yaxınlarda Nyu-Yorkda Dayanıqlı İnkişaf Məqsədləri sammitində iştirakına toxunan Maimuna Mohd Şərif həmin tədbirdə iqlim dəyişikliyi və urbanizasiya məsələləri ilə bağlı geniş fikir mübadiləsinin aparıldığını və bu mövzuların Azərbaycanda həyata keçirilən işlərlə də sıx bağlı olduğunu vurğuladı.

İqlim dəyişikliyi və urbanizasiyanın Azərbaycan üçün çox mühüm məsələlər olduğunu bildirən dövlətimizin başçısı BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunun ölkəmizə keçənilki səfərindən ötən müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı yenidənqurma işlərinin həyata keçirildiyini bildirdi. Keçmiş məcburi köçkünlərin artıq 2 şəhər və 3 kəndə yerləşdirildiyini və bu prosesin davam etdirildiyini vurğulayan Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfəri zamanı bu sahədə gedən işlərlə yaxından tanış olacağına ümidvarlığını ifadə etdi.

İqlim dəyişikliyi məsələsinə toxunan Azərbaycan Prezidenti bərpa olunan enerji sahəsində ölkəmizdə görülən işlərin də bu məsələyə töhfə verdiyini vurğuladı, işğaldan azad edilmiş ərazilərimizdə 500 meqavata yaxın günəş və külək enerjisinin istehsalı ilə bağlı 2 layihənin icra olunduğunu bildirdi.

## Prezident İlham Əliyev ABŞ Prezidentinin xüsusi nümayəndəsini, Dövlət katibinin köməkçisini və Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.

Görüşdə Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirləri nəticəsində yaranmış hazırkı vəziyyət barədə fikir mübadiləsi aparıldı.

Yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələri və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsi də toplanmış silah və hərbi texnikaya baxıblar.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edildiyini deyən Prezident İlham Əliyev onların Azərbaycan ərazisindən çıxarılması prosesinin həyata keçirildiyini bildirdi.

Azərbaycan Prezidenti qeyd etdi ki, antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib, hədəf ancaq qanunsuz erməni silahlı birləşmələri və hərbi obyektlər olub.

Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarına toxunan Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, onların da hüquqları ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin ediləcək.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın nümayəndələri ilə Qarabağın erməni sakinlərinin təmsilçiləri arasında reinteqrasiya istiqamətində dialoq aparılır.

Ərazidə infrastrukturun bərpası ilə bağlı işlərin aparıldığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın erməni sakinlərə humanitar yardımlar göndərdiyini bildirdi, yardımların göstərilməsi ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə də əməkdaşlığın həyata keçirildiyini dedi.

Dövlətimizin başçısı qeyd etdi ki, rəsmi Bakı ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə hazırdır.

Söhbət zamanı bölgədə sabitliyin təmin edilməsi və yerli ermənilərlə dialoqun vacibliyi vurğulandı.

**AZƏRTAC**

## Fuad Nəcəfli 27 sentyabr – Anım Gününə həsr olunmuş dərsdə iştirak edib









Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbdə 27 sentyabr – Anım Gününə həsr olunan dərsdə iştirak edib. Məktəbin IX^A sinfinin şagirdləri Fuad Nəcəflinin 27 sentyabr – Anım Günü ilə bağlı suallarını cavablandırıblar.

Azərbaycanın dövlətçilik tarixindən və Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründən söhbət açan səlahiyyətli nümayəndə bildirib ki, sovet ittifaqında rəhbər vəzifələrdə çalışan Ümummilli Lider öz gərgin əməyi sayəsində Azərbaycan Respublikasını digər SSRİ respublikaları arasında önə çıxarıb, hər zaman Azərbaycan xalqını, onun maraq və mənafeyini bütün maraqlardan üstün tutub. Ulu Öndər gənclərə xüsusi diqqət göstərirdi. Respublikaya rəhbərlik etdiyi dövrlərdə minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil alır, müasir ixtisaslara yiyələnirdilər.



Ümummilli Liderin Naxçıvana qayıtmasından danışan Fuad Nəcəfli xalq tərəfindən Ulu Öndərin böyük coşqu ilə qarşılanmasından bəhs edib. Vurğulayıb ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda da vəziyyət çox ağır idi. Xalq erməni təcavüzünə məruz qalaraq blokada şəraitində yaşayırdı və ermənilərin blokadaya aldığı Naxçıvan məhz Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində işğaldan və digər təhlükələrdən qorundu.

Azərbaycanın humanist dövlət olduğunu vurğulayan Fuad Nəcəfli qeyd edib ki, dövlətimiz bu illər ərzində Ermənistanla əlaqələrin qurulmasının, torpaqlarımızın sülh yolu ilə qaytarılmasının tərəfdarı olub. Lakin Ermənistan heç vaxt öz təcavüzkar ideologiyasından əl çəkməyib, hətta yeni ərazi iddiaları ilə çıxış edib. Ermənistanın 2020-ci ilin iyul ayında Azərbaycan Respublikasının dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi genişmiqyaslı təxribatlar və ondan sonrakı təxribatlar Azərbaycanın əks-hücum əməliyyatlarına başlaması ilə nəticələndi. Müzəffər Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində şanlı ordumuz böyük zəfərə imza atdı, torpaqlarımızı işğaldan azad etdi. Vətən müharibəsi ilə ordumuz Ermənistan ordusunun məğlubedilməzlik mifini məhv etdi.

Həmçinin Azərbaycanın Qarabağ iqtisadi rayonunda aparılan uğurlu lokal antiterror tədbirləri sayəsində suverenliyimizin bərpa olunmasından bəhs edən səlahiyyətli nümayəndə vurğulayıb ki, biz bu uğurları şəhidlərimizə və qazilərimizə borcluyuq. Onlar bizim qürur mənbəyimizdir.

"Siz olduqca şanlı bir dövr yaşayırsınız. Sizin gəncliyiniz elə bir dövrə təsadüf edir ki, bu dövr Azərbaycanın yeni yüksəliş dövrüdür. Biz ərazi bütövlüyümüzü bərpa etmişik. Artıq qarşımızda əvvəllər yaranan maneələr yoxdur. Bundan sonra daha da inkişaf etməli, elmdə, iqtisadiyyatda, sosial həyatda tərəqqiyə yol açacaq addımlar atmalıyıq. Bu vəzifə də sizin üzərinizə düşür. Çalışın ki, şəhidlərimizi və qazilərimizi heç vaxt unutmayasınız və unutdurmayasınız", – deyə Fuad Nəcəfli qeyd edib.

Səlahiyyətli nümayəndə müəllim və şagirdlərə uğurlar arzulayıb.

**"Şərq qapısı"**

## Ali Məclisin kollektivi Vətən müharibəsi şəhidlərinin xatirəsini yad edib



Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin kollektivi və Naxçıvan şəhərindən olan deputatlar Anım Günü ilə əlaqədar əvvəlcə Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında şəhidlərin məzarlarını və xiyabandakı 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək güllər qoyub, şəhidlərin xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra Naxçıvan şəhər qəbiristanlığındakı Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət edib, məzarların üzərinə güllər qoyulub, "Qurani-Kərim"dən ayələr oxunaraq şəhidlərin xatirəsinə ehtiram ifadə edilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Zəfər Parkını ziyarət edib






Vətən müharibəsi 27 sentyabr 2020-ci ildə, səhər saatlarında ermənilərin işğal olunmuş ərazilərimizdə növbəti hərbi təxribatı ilə başladı. Mənfur düşmən yaşayış məntəqələrimizi, döyüş mövqelərimizi şiddətli artilleriya atəşinə tutdu. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev düşmənin təxribatının qarşısını almaq məqsədilə bütün cəbhəboyu əks-hücum əmri verdi. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə, xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Bu müharibədə Azərbaycan xalqı, əsgər və zabitlərimizin şücaəti, cənab Prezidentimizin qətiyyətli addımları sayəsində düşmənə nəyə qadir olduğumuzu nümayiş etdirdi. 44 gün davam edən müharibə düşmənin acınacaqlı məğlubiyyəti ilə nəticələndi. Doğma torpaqlarımıza geri döndük, işğaldan azad edilmiş hər bir yurd yerimizə Azərbaycan Bayrağını sancdıq.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə Azərbaycanda Vətən müharibəsinin başlandığı gün – 27 sentyabr Azərbaycan Respublikasında "Anım Günü" kimi qeyd edilir. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov və Nazirlər Kabinetinin kollektivi Zəfər Parkını ziyarət edib, şəhidlərimizin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***



## Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib

Torpaq uğrunda, Vətən yolunda şəhid olan, onun keşiyini çəkib sərhəd daşına dönən oğullar heç vaxt unudulmur, əbədi yaşayırlar. II Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalanlar bu gün hər birimizin and yerinə çevriliblər.

II Qarabağ müharibəsinin başlandığı tarix, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə ölkəmizdə təsis olunan 27 sentyabr – Anım Günündə muxtar respublikada da ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərimiz böyük ehtiramla yad olunub. Həmin gün muxtar respublikanın nazirlik, komitə, idarə, müəssisə və təşkilatlarının nümayəndələri, demək olar ki, bütün sakinlər şəhid məzarlarını ziyarət ediblər. Məzarların önünə gül dəstələri qoyulub, dualar oxunub, ərazi bütövlüyümüz uğrunda canından keçən igidlərimiz minnətdarlıqla yad edilib.

Sentyabrın 27-də saat $12^{00}$-da muxtar respublikanın bütün ərazisində Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb.

## Naxçıvanda 27 sentyabr – Anım Günü qeyd olunub

Dünən Xatirə Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında 27 sentyabr – Anım Günü ilə bağlı interaktiv dərs keçilib, ilk dərs saatları Anım Gününə həsr olunub. İnteraktiv dərsi Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin tarix müəllimi Rauf Bağırov aparıb. Bildirilib ki, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə, xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənin layiqli cavabını vermişdir.



Dərsdə rəşadətli Ordumuzun zəfər yürüşündə Naxçıvan döyüşçülərinin qəhrəmanlığından bəhs edilərək qeyd olunmuşdur ki, müharibənin əsas canlı qüvvələrindən biri də məhz Naxçıvandan olan hərbçi-zabitlər idi. Müharibədə iştirak edən qəhrəmanlar xüsusi təlimlər almış, yüksək hərbi bacarıqlara malik, illərlə Vətənin bu günü üçün yetişdirilmiş zabitlər idi. Buna görə də Azərbaycan Respublikasının Prezidenti 10 noyabr tarixində Qələbə xəbərini xalqa verərkən Naxçıvandan cəbhəyə yollanan igidlərimizin qəhrəmanlıqlarından xüsusi söz açdı. Ali Baş Komandan qeyd etdi ki, naxçıvanlılar müharibədə qəhrəmanlıqla vuruşub və şəhidlər verib.

İnteraktiv dərsdə Azərbaycan Ordusunun sentyabrın 19-da başlatdığı lokal xarakterli antiterror tədbirləri haqqında da şagirdlərə məlumat verilərək bildirilib ki, ordumuz qarşıda duran bütün vəzifələri cəmi bir gün ərzində yerinə yetirdi və düşmən layiqincə cəzalandırıldı. Ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il 27 sentyabr "Anım Günü", 8 noyabr isə "Zəfər Günü" kimi qeyd edilir. Bildirilib ki, 2021-2022-ci tədris ilindən muxtar respublikanın ümumi təhsil müəssisələrinin IX siniflərində "Zəfər tarixi" tədris olunur.

Qeyd edək ki, dünən muxtar respublikanın bütün ümumi təhsil müəssisələrində ilk dərs saatları 27 sentyabr – Anım Gününə həsr olunub.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin inzibati binasında rəhbər və şəxsi heyətin iştirakı ilə tədbir keçirilib.



Əvvəlcə torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilib.

Çıxışlar zamanı bildirilib ki, Ermənistanın Azərbaycana qarşı başlayan növbəti hərbi təcavüzünə cavab olaraq ordumuzun işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinə başladığı gündən 3 il ötür. Qeyd olunub ki, Vətən müharibəsində Azərbaycan xalqı, sözün həqiqi mənasında, birlik nümayiş etdirərək böyük zəfərə nail oldu. 44 günün hər günü Azərbaycanın şanlı tarixidir. Azərbaycan xalqı və dövləti Vətən uğrunda şəhid olan qəhrəman övladlarının işıqlı xatirəsini əziz tutur, onları daim xüsusi ehtiramla yad edir.

Sonda Vətən müharibəsindən bəhs edən sənədli filmə baxış olub.

* * *



*Naxçıvan Dövlət Universitetində Vətən müharibəsi qaziləri ilə tələbələrin "Şəhidlərin şahidləri" adlı görüşü təşkil edilib. Tədbirdə əvvəlcə Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.*

Şəhid və qazi övladlarının da iştirak etdiyi tədbirdə ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazılan 2020-ci ilin sentyabr ayından üç il ötsə də, o tarixi qələbə hələ yüz illərlə xatırlanacaq. Çünki həmin ildə qüdrətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində böyük Zəfərə, unudulmaz tarixi qələbəyə imza atdı. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuzun xalqımıza bəxş etdiyi sevinci hər bir azərbaycanlı bu gün böyük qürur hissi ilə yaşayır. Elbrus İsayev bildirib ki, ən əsası isə qazandığımız bütün bu tarixi nailiyyətlərə görə Ali Baş Komandana, onun rəhbərliyi altında bizləri Qələbə sevincinə qovuşduran Azərbaycan Ordusuna, əsgər və zabitlərimizə, Vətən uğrunda canından keçən qeyrətli, cəsur oğullarımıza və qazilərimizə minnətdarıq.

Sonra müzakirə formasında davam edən tədbirdə İkinci Qarabağ müharibəsi qaziləri, Naxçıvan Qaziləri İctimai Birliyinin sədri Ceyhun Bayramov, Pərviz Muradov və Nurlan Quliyevin döyüş xatirələrinə nəzər salınıb, tələbələri maraqlandıran suallar cavablandırılıb.

* * *

"Naxçıvan" Universitetində keçirilən tədbirdə çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Nurlana Əliyeva 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində qəhrəman oğullarımızın şücaətindən danışıb.



"Naxçıvan" Universitetinin Ümumi tarix və beynəlxalq münasibətlər kafedrasının dosenti Elçin Zamanov Vətən müharibəsində ordumuzun göstərdiyi qəhrəmanlıqdan bəhs edərək 27 sentyabrın ölkəmiz üçün qələbənin başlanğıc tarixi olduğunu bildirib. Xalqımızın bu haqq savaşında Ali Baş Komandan cənab İlham Əliyeva, rəşadətli Ordusuna söykənərək qalib gəldiyini, tarixi torpaqlarımızı düşmən tapdağından azad etdiyini diqqətə çatdırıb.

Universitetin Pedaqoji fakültəsinin Tarix ixtisası üzrə II kurs tələbəsi Rəfael Sadiqov "Dünya hərb tarixində yenilik: 23 saatlıq antiterror əməliyyatı" məruzəsi ilə çıxış edib.

Tədbir 44 günlük Vətən müharibəsinə həsr olunmuş sənədli televiziya filminin nümayişi ilə yekunlaşıb.

* * *

Naxçıvan Müəllimlər İnstitutunda Anım Günü münasibətilə keçirilən tədbirdə institutun rektoru Azad Novruzov çıxış edərək bildirib ki, 44 gün davam edən Vətən müharibəsində igid, cəsur, qəhrəman oğullarımız göstərdikləri şücaətlə bir daha sübut etdilər ki, xalq şəhid verirsə, deməli, o xalq böyük xalqdır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, milli ordunun rəşadəti, xalq-dövlət birliyi ilə 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazanılan zəfər Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri kimi yaddaşlara yazılıb.



Sonra şəhid Vəli Quliyevin ailəsi ilə çəkilən və institutun tələbələrinin iştirak etdiyi videoçarx nümayiş olunub və çıxış edən qazilər – baş leytenant Hüseyn Həsənov, ehtiyatda olan leytenant Fərdi Məmmədov, əsgər Elsun Nəcəfzadə və Əyyub Sadiqov döyüş xatirələrindən bəhs ediblər.

Tədbir bədii hissə ilə davam etdirilib, tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub.

* * *

II Qarabağ müharibəsinin başlandığı 27 sentyabr tarixi, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə ölkəmizdə "Anım Günü" kimi təsis olunub. Hər il ölkəmizin hər yerində olduğu kimi, Naxçıvanda da ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərimiz böyük ehtiramla yad edilir. Həmin gün muxtar respublikanın nazirlik, komitə, idarə, müəssisə və təşkilatlarında anım tədbirləri keçirilir, şəhid məzarları ziyarət edilir. Bu il də muxtar respublikanın şəhər, rayon və kəndlərində Vətən uğrunda canlarını fəda edən oğulların əziz xatirəsi ehtiramla anılıb, tədbirlər keçirilib.

*Ardı 4-cü səhifədə*



27 sentyabr – Anım Günü ilə əlaqədar muxtar respublikanın rayon mərkəzlərindəki Şəhidlər xiyabanı, kəndlərdəki şəhid məzarları ziyarət edilib, gül dəstələri qoyulub, dualar oxunub, ərazi bütövlüyümüz uğrunda canlarından keçən igidlərimizin əziz xatirəsi minnətdarlıqla anılıb. Anım Günü ilə əlaqədar keçirilən tədbirlərdə çıxış edənlər Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuzun böyük zəfər qazanmasından və oğullarımızın şücaətindən danışıblar.

Çıxışlarda qeyd olunub ki, erməni daşnaklarının 30 il müddətində yaratdıqları "güclü Ermənistan ordusu" Azərbaycan Ordusu qarşısında cəmi 44 gün tab gətirə bildi. Bu haqq mübarizəsində hər kəs Vətənin azadlığı yolunda canla-başla xidmət göstərdi. Nəticədə, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında öz əzmi və şücaəti ilə işğal olunmuş torpaqlarımızı düşməndən təmizlədi, Azərbaycanın ərazi bütövlüyünü təmin etməyi bacardı.

Bildirilib ki, Vətən müharibəsi başlayan kimi Naxçıvanın qəhrəman övladları da torpaqlarımızın işğaldan azad olunması üçün müqəddəs savaşa atılıb, şəhidlər veriblər. Ölkə başçısı 44 günlük Vətən müharibəsində Naxçıvandan olan qəhrəman oğulların igidliklərini yüksək qiymətləndirərək deyib: ***"Naxçıvanlılar İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər… Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".***

Tarixi Zəfərdən sonra 2021-ci il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikaya səfəri zamanı Naxçıvan şəhər qəbiristanlığında Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət edərək onlara ehtiramını bildirib.



Vurğulanıb ki, Vətən torpaqlarının azadlığı yolunda xalqımız 3 minə yaxın şəhid verdi, minlərlə döyüşçümüz yaralanaraq qazi oldu. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncamı şəhid ruhlarına, şəhidlərin doğmalarına yüksək ehtiramın göstəricisidir. Belə ehtiramın daha bir ifadəsidir ki,



ərazi bütövlüyümüzün bərpa olunması uğrunda gedən hərbi əməliyyatlarda iştirak edərək şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını ləyaqətlə, vicdanla, uğurla yerinə yetirmiş hərbi qulluqçularımız ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunub, şəhid ailələri, qazi və müharibə iştirakçılarının sosial müdafiəsi gücləndirilib, onlar mənzil və avtomobillərlə təmin ediliblər. Xalqımız Vətən yolunda canından keçən əziz oğullarını heç vaxt unutmayacaq, onların əziz xatirəsini hər zaman böyük hörmət və ehtiramla anacaq.

**Xəbərlər şöbəsi**

## Hər bir şəhidimiz tariximizə qızıl hərflərlə yazılan Şanlı Qələbəmizin baş qəhrəmanıdır

*Sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu öz gücünü bütün dünyaya göstərərək şanlı Zəfər tarixini yazdı. Ölkə başçısının sarsılmaz iradəsi, dövlət-xalq-ordu birliyi, əsgər və zabitlərimizin qəhrəmanlığı, şücaəti, igidliyi hesabına 30 illik həsrətə son qoyuldu. Şuşamıza, Laçınımıza, Kəlbəcərimizə, Qubadlımıza, Füzulimizə və digər doğma torpaqlarımıza – Qarabağımıza qovuşduq. "Öldü var, döndü yox!" – deyən vətənpərvər, cəsur Vətən oğulları üçrəngli bayrağımızı əzəli və qədim torpaqlarımızda əbədi dalğalandırdı.*




Qürurluyuq və iftixar hissi ilə yaşayırıq ki, şəhidlik adlı ali məqama yüksələnlər sırasında qədim diyarımız Naxçıvanın da vətənpərvər, qəhrəman oğulları vardır. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".*** Onlar göstərdikləri rəşadətə görə Ali Baş Komandan tərəfindən "Vətən müharibəsi qəhrəmanı" fəxri adına layiq görülüb, orden və medallarla təltif olunublar.

27 sentyabr – Anım Günündə Naxçıvan şəhər qəbiristanlığında uyuyan şəhidlərimiz də ziyarət edilib, onların ruhlarına dualar oxunub, əziz xatirələri yad edilib. Burada şəhid kapitan Elcan Balabəylinin qardaşı ***Elçin Balabəyli*** duyğu və düşüncələrini bizimlə bölüşdü: "Qardaşım İkinci Qarabağ müharibəsinin fəal iştirakçılarından olub. 2020-ci ildə qəlpə yarası alaraq xəstəxanaya yerləşdirilməsinə baxmayaraq, yenidən döyüşə yollanıb. Vətən müharibəsi başa çatdıqdan sonra Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Qardaşım böyük qəhrəmanlıq göstərərək antiterror əməliyyatı zamanı Ağdərə istiqamətində gedən döyüşdə şəhidlik zirvəsinə yüksəlib. Qardaşımla qürur duyuruq, o bizim fəxrimiz oldu".



17 il Vətənin keşiyində dayanan, Vətən müharibəsi zamanı Tərtər, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edən, yaralanmasına baxmayaraq, yenidən torpaqlarımızın müdafiəsində iştirak edən ehtiyatda olan kapitan, kəşfiyyat rəisi, qazi ***Rza Əlirzayev*** bu müqəddəs günün əhəmiyyətinə toxunaraq dedi: "Anım günü, eyni zamanda milli qürur günümüzdür. Burada uyuyan qardaşlarımın bir çoxunun döyüş zamanı qəhrəmanlığının yaxından şahidi olmuşam. Hər şəhid bir qəhrəmandır. Onlar bizim milli qeyrətimizi dirçəltdi, xalqımıza başucalıq gətirdi. Torpaqlarımızın azadlığı uğrunda qorxmazlıq, cəsurluq nümayiş etdirərək, ölümün gözünə dik baxaraq şəhadətə yüksəldilər. Qardaşlarımla, döyüş yoldaşlarımla fəxr edirəm".

Vətən müharibəsi iştirakçısı ***Rüfət Əhmədzadə*** söhbətimiz zamanı bildirdi ki, müharibənin başlanğıcından sonuna qədər xalqımız "Dəmir yumruq" ətrafında sıx birləşdi. Zəfərə gedən yolda bu birlik, bərabərlik çox əhəmiyyətli rol oynadı. Bu gün şəhidlərimizi fəxr hissi ilə anırıq. Anım Günündə şəhid ailələrinin yanında olub, şəhid məzarlarını ziyarət etdik. Nə qədər qəmli olsaq da, bir o qədər qürurluyuq. Şəhid qardaşlarımızın qanı yerdə qalmadı, bu gün onların ruhu şaddır.

Şəhid Vaqif Rəcəbovun anası ***Məryəm Rəcəbova*** oğlunun yoxluğu ona çətin də olsa da, Vətən uğrunda canını fəda edən hər bir Vətən övladı ilə fəxr etdiyini dedi: "Bizim arzularımız yarım qalsa da, balalarımız arzuladığı məqama çatdı. Oğlum üç övladını bizə yadigar qoydu. O qədər vətənpərvər idi ki, ordu sıralarında həmişə canla-başla xidmət edirdi. Buradakı balaların hamısı qanları ilə tarix yazdılar".

Ziyarətə gələnlərdən ***Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov***la həmsöhbət olduq. Rövşən müəllim bu qürurlu gündə ürək sözlərini bizimlə bölüşdü: "Kollektivimizlə birgə şəhidlərimizin əziz xatirəsini yad etmək üçün gəlmişik. Bu gün xalqımızın milli duyğularını özündə əks etdirən bir gündür. Hər bir şəhidimiz canlarını fəda edərək qəlbimizdə ölməzlik qazanıblar. Biz bu gün onları ziyarət edərək milli birliyimizi bir



daha nümayiş etdirir, şəhid ailələrinin yanında olmağa çalışırıq". Rövşən müəllim qəlbindən keçən hissləri belə ifadə etdi:

*Dözümdə dözümdü, uca dağdılar*
*Alnıaçıqdılar, üzüağdılar*
*Onlar ölməyiblər, hələ sağdılar*
*Sadəcə, yorulub yatır şəhidlər*

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev demişdir: ***"Torpaq, vətən naminə, müstəqillik naminə şəhid olan insan ən yüksək zirvəyə çatmış insandır".*** Bəli, xalqımız Vətən üçün yaşayan, Vətən üçün canını fəda edən qəhrəman oğulları ilə fəxr edir. Əgər bu gün şanlı Qələbəmizi, əzəli, tarixi torpaqlarımızın işğaldan azad edilməsini və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini başı dik, qürurla qeyd ediriksə, bunu qəhrəman oğullarımıza borcluyuq. Onlar Vətənə sevginin, məhəbbətin, vətənpərvərliyin, yüksək mənəviyyatın ən gözəl nümunələridir. Adını tarixə əbədi yazan şəhidlərimizin valideynlərinə Allahdan səbir diləyirik. Onlar hər an qəlbimizdədir, ürəklərdə yaşayır və yaşayacaqdır!.. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**✍ Bülbül QULİYEVA**
**✍ Aidə İBRAHİMOVA**

## Naxçıvan "yaşıl enerji" dəhlizinə çevrilir

### *Azərbaycan-Türkiyə Enerji Forumunun muxtar respublikada keçirilməsi bunu bir daha göstərir*

*İlk dəfə 2021-ci ildə Bakıda təşkil olunan Azərbaycan-Türkiyə Enerji Forumu iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur. Əsasən, "yaşıl enerji" konsepsiyası çərçivəsində formalaşdırılan bu platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini hədəfləyir. 2022-ci ildə Türkiyədə keçirilən forumun bu dəfə Azərbaycanda, həm də Naxçıvanda keçirilməsinin qərara alınması isə xüsusi əhəmiyyət daşıyır. Sentyabrın 28-dən başlayaraq iki gün davam edəcək bu mühüm tədbir regionun bərpa olunan enerji mənbələrini bir daha təhlil etmək, qarşılıqlı əməkdaşlıq imkanlarının genişləndirilməsinə nail olmaq baxımından böyük rol oynayır.*



Məlumdur ki, son illərdə, xüsusilə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanda bərpa olunan enerji mənbələrinə qoyulan investisiyaların həcmi artıb. Bunun bir səbəbi Azərbaycanın innovativ texnoloji həllərə açıq olmasıdırsa, digər səbəbi işğaldan azad edilən bölgələr də daxil olmaqla, bərpa olunan enerji mənbələrinin həcminin genişlənməsidir. Təsadüfi deyil ki, Naxçıvanın enerji tranzitinə çevrilməsi II Qarabağ müharibəsindən sonra daha da aktuallaşıb. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun bərpa olunan enerji mənbələrindən istehsal edilən enerjinin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana, oradan isə Türkiyə və Avropaya ötürülməsi qarşıdakı iqtisadi hədəflərdən biri kimi müəyyənləşdirilib. Digər tərəfdən, muxtar respublikanın bərpa olunan enerji mənbələri ilə zəngin olması bilavasitə Naxçıvanın özünün potensial enerji dəhlizi kimi rolunu artırır.

Ötən yazılarımızda da qeyd etdiyimiz kimi, bu ilin iyun ayında Bakı Enerji Həftəsinin xüsusi sessiyası Naxçıvanda keçirilmişdi. Həmin tədbirdə muxtar respublikada 1500 MVt gücündə "yaşıl enerji" layihələrinin reallaşdırılacağı bildirilmişdi. Hətta sessiyanın gedişində Energetika Nazirliyi və "Total Energies" şirkəti arasında "250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 MVt gücündə günəş elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", eyni zamanda adıçəkilən nazirliklə "Nobel Energy Management" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında "Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır. Təsadüfi deyil ki, Naxçıvanın "yaşıl enerji" potensialının müzakirə olunduğu həmin sessiyada Böyük Britaniya, Fransa, Çin kimi inkişaf etmiş ölkələrin nümayəndələri də iştirak edirdi. Ehtimal etmək olar ki, bu forumda da muxtar respublikanın bərpa olunan enerji mənbələrindən istifadə, eləcə də "yaşıl enerji"nin toplanılması və ixracı yönündə fikir mübadiləsi aparmaq üçün yeni imkanlar yaranacaq. Yeri gəlmişkən, Azərbaycan və Türkiyə prezidentlərinin sentyabrın 25-də Naxçıvanda görüşündə də cənab İlham Əliyev adıçəkilən forumun keçirilməsinin əhəmiyyətini vurğuladı: ***"Bir neçə gündən sonra, daha



doğrusu, üç gündən sonra Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcəkdir və əminəm ki, bu forumun nəticələri uğurlu olacaq. Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan "yaşıl enerji" zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində "yaşıl enerji" ixracı da mümkün olacaqdır".***

Qeyd edək ki, bu görüşdə "Azərbaycan Respublikasında və Türkiyə Respublikasında bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" da imzalanıb. Beləliklə, növbəti enerji forumu Azərbaycan və Türkiyə arasında müvafiq sahənin daha da inkişaf etdirilməsi ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının da "yaşıl enerji" dəhlizi üçün əhəmiyyətini bir daha ortaya qoyur.

**✍ Səbuhi HƏSƏNOV**

*2023-cü il "Heydər Əliyev İli"dir*

# Ümummilli Liderin strategiyasını işləyib hazırladığı Azərbaycan səhiyyəsi dinamik inkişaf yolundadır

*Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən Ümummilli Lider Heydər Əliyev olub. Həm SSRİ, həm də müstəqillik dövründə Ulu Öndərin mənalı həyatı və çoxşaxəli fəaliyyəti yalnız Azərbaycan xalqının inkişafına xidmətdə keçib. Azərbaycan məhz görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə inkişaf edərək tərəqqi yoluna çıxıb, bütün sahələrdə mühüm uğurlar, parlaq nəticələr əldə olunub. Bu gün dahi rəhbərin siyasi fəaliyyətinin müxtəlif dövrlərinə nəzər salanda şərəflə yaşanan ömrün 35 ilə yaxın bir dövrünü Azərbaycana rəhbərlik edən, onun ən parlaq yaradıcısı, qurucusu, ilhamverici qüvvəsi olan, başarılıq zirvələrini fəth edərək əbədiyaşarlıq rəmzinə çevrilən Ulu Öndər həm də Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sistemlərinin ən möhtəşəm memarı, dinamik inkişafının tənzimləyicisi kimi şüurlara, yaddaşlara əbədi həkk olunub.*




Ümummilli Liderin 1969-cu il iyulun 14-də Azərbaycanda ilk dəfə siyasi rəhbərliyə gəlməsi xalqın öz dahi liderinə qovuşmasının, onun ətrafında sıx birləşməsinin təminatçısına çevrildi. Hələ gələcək möhtəşəm nailiyyətlərin ilk addımları atılan həmin dövrdə Azərbaycanın bütün sahələrində doğma xalqımızda milli dirçəlişə, özünüdərkə inamın, ölkə başçısına olan böyük ehtiramın yaranmasının möhkəm təməlləri qoyuldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında qeyd edilir: *"Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir".*

Ümummilli Lider keçmiş SSRİ dövründə Azərbaycanda xalq təsərrüfatının bütün sahələrinin inkişafını həmahəng surətdə ardıcıllıqla həyata keçirir, yeniliyə, tərəqqiyə sədd yaradan keçmişdən miras qalmış maneələri, lüzumsuz stereotipləri inamla dəf edir, aradan qaldırırdı. Görkəmli dövlət xadimi gecəli-gündüzlü istirahət bilmədən daim fəaliyyət göstərərək Azərbaycanın gələcəyi naminə yeni-yeni layihələr hazırlayır və dərhal da onların həyata keçirilmələrinə şərait yaradırdı.

Ulu Öndər XX əsrin 70-80-ci illərində həmin siyasətin tərkib hissəsi kimi səhiyyə sisteminin də yüksəlişini təmin edərək bu sahənin hərtərəfli inkişafı üçün dövlət səviyyəsində bütün mümkün tədbirləri gerçəkləşdirib. Böyük rəhbər həmin dövrdə, ilk növbədə, tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışmış, bununla da səhiyyədə, o cümlədən tibb elmi və tibb təhsili sahələrində mövcud durğunluğun aradan qaldırılmasına nail olmuşdu. Keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən Ulu Öndər respublikamızın səhiyyə sisteminin beynəlxalq miqyasa çıxmasına, onların dayanıqlı və sabit inkişafına əlverişli şərait yaratmışdı. Ümummilli Lider 1983-cü ildə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi Onun Azərbaycan səhiyyəsinə, Azərbaycan tibb elminə, tibb təhsili sisteminə olan nəzarətini, diqqətini nəinki azaltmamış, əksinə, daha da artırmışdı. O, Moskvada çalışdığı illərdə SSRİ-nin səhiyyə sahəsinə də nəzarət edir və Sovetlər İttifaqının yüksək rütbəli tibb alimləri, səhiyyə işçiləri ilə tez-tez görüşlər keçirir, bu sahədəki problemlərin müzakirəsini aparır, onların həlli yollarını peşəkarcasına göstərirdi.

Ulu Öndər Heydər Əliyev bu sahədə fəaliyyət göstərən digər aparıcı mütəxəssislər ilə sıx əlaqələr saxlayır, onların diqqətini Azərbaycana cəlb edir, bununla da Azərbaycan səhiyyəsinin inkişafına güclü təkan verilməsinə möhkəm zəmin yaradırdı. Xalqımızın böyük oğlu 1998-ci il sentyabrın 28-də Azərbaycan Tibb Universitetinin yeni tədris binasının açılışında çıxış edərkən Azərbaycan səhiyyəsinin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərdiyi saysız-hesabsız amillərə toxunaraq deyirdi: ***"Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra Sovetlər İttifaqının, SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm… Mən o vaxt Sovetlər İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm Onkoloji Mərkəzin, həm Kardioloji Mərkəzin, həm Ürək Cərrahiyyəsi Mərkəzinin, həm Oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində, onların maddi-texniki bazasının yaranmasında çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ Tibb Elmləri Akademiyasının 40 illik yubileyində Sovet İttifaqının rəhbərliyi adından iştirak etdim. Mən bir də bunları edərək o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım".***

Müstəqil Azərbaycanın qurucusu və yaradıcısı olan Heydər Əliyev ideyaları ölkəmizin bütün sahələrində, o cümlədən ictimai və iqtisadi-siyasi, milli-ənənəvi və mədəni-kütləvi, elmi-maarifləndirici və sosial-müdafiə sahələrində əsaslı dönüş yaranmasının başlıca istiqamətverici qüvvəsi kimi öz xoşməramlı avanqardlığını hər zaman saxlamaqdadır. XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq, yeni dinamik inkişaf mərhələsinə qədəm qoyması məhz dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla ilk təməl daşlarını qoyduğu uzaqgörən siyasətin, dərin islahatlar strategiyasının nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan Ulu Öndər xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurub, mütərəqqi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürüb. Ümummilli Lider qlobal proseslər fonunda tam fərqli – xalqın demokratik idealları, milli dövlətçilik təfəkkürü ilə uzlaşan, hər bir mərhələ üçün konkret fəaliyyət prioritetləri, taktiki və strateji məqsədləri olan milli inkişaf strategiyasını irəli sürərək uğurla həyata keçirib. 1993-cü ildən dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstərib.

Tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Ulu Öndərin müəyyənləşdirdiyi strateji siyasət kursunu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev səhiyyə sistemində də layiqincə davam etdirir. Ötən müddətdə bu vacib sahənin inkişafı, onun maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibb xidmətinin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açmışdır. Ölkə başçısının da dediyi kimi: ***"Səhiyyə xidməti ən yüksək səviyyədə olmalıdır. Bu bizim sosial siyasətimizin əsas istiqamətidir. Çünki insanların sağlamlığı üçün bütün işlər görülməlidir. Azərbaycanda güclü iqtisadi və sosial siyasət aparılır. Hər bir yaşayış məntəqəsində, hər bir rayonda tibbi xidmət yüksək dünya səviyyəsində olmalıdır".***

Son illər Azərbaycanda bütün sahələrin dinamik inkişafını hər birimiz öz həyatımızda görürük. Bu inkişafın təməlində dayanan başlıca amillərdən biri də səhiyyə ilə bağlı qəbul olunmuş mühüm Dövlət proqramlarıdır. Həmin proqramlar əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması, icbari tibbi sığortanın tətbiqi sözügedən istiqamətdə gerçəkləşən siyasətin əsas prioritetlərini təşkil edir.

Səhiyyədə qazanılan uğurları bu gün muxtar respublikamızda da görmək olar. Bəhs edilən sahənin yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması Naxçıvanda dinamik xarakter alan genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsinə çevrilmişdir. Diyarımızda dövlət başçısının qayğısı ilə yüzlərlə səhiyyə obyektinin tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialının sosial siyasətin icrasına, əhalinin sağlamlığına yönəldiyinin parlaq göstəricisidir.

Son zamanlarda muxtar respublika səhiyyəsində aparılan islahatlar əhalinin xüsusi məmnunluqla qarşıladığı yeniliklərlə diqqət çəkir. Düşünülmüş və əhalinin sağlamlığı naminə ən yüksək tibbi xidmətin təmini məqsədilə seçilərək təyin edilmiş tibbi kadrlardan, muxtar respublika əhalisinin ən çox ehtiyacı olan tibb müəssisələrinin yaradılmasına kimi hər bir qərar xəstəliklərin və ölüm sayının azaldılmasına, əhali üçün tibbi təminatın əlçatanlığına hesablanmış qərarlardır.

Muxtar respublikanın bütün bölgələrində inşa olunan, hər cür tibbi avadanlıqlarla təchiz edilən səhiyyə obyektləri bir gerçəkliyi vurğulayır: dövlətimizin əsas amalı insan sağlamlığıdır. Bu gün nəinki Naxçıvan şəhərində, eləcə də ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində yüksək tibbi şərait yaradılıb, günün bütün saatlarında xəstələri abad yollarla, müasir tibbi avadanlıqlarla təchiz edilmiş təcili yardım maşınları ilə lazımi səhiyyə ocağına çatdırmaq imkanına nail olunub. Əgər bu gün xəstələr pulsuz dərmanlarla təmin olunursa, sağlam gələcəyimiz naminə təhsil müəssisələrində profilaktik tədbirlər həyata keçirilirsə, ana və körpələrin vaxtlı-vaxtında müayinəsi aparılırsa, müxtəlif ixtisaslı həkim briqadaları bütün yaşayış məntəqələrində insanları tibbi yoxlamaya cəlb edilirsə, bu, sağlamlığa göstərilən qayğının ən böyük nümunəsidir.

Bu gün səhiyyə sahəsində bir çox istiqamətlər üzrə islahatlar aparılır, genişmiqyaslı işlər görülür. Səhiyyə sahəsində dövlətlə vətəndaş arasında maraqlar balansının, hər bir pasiyentə münasibətdə müasir yanaşmanın təmin edilməsi, obyektivlik, şəffaflıq və hesabatlılıq kimi prinsiplərə əsaslanan fəaliyyətə nail olunması, tibbi xidmətlər sahəsində bir sıra proseslərin sadələşdirilməsi, çevikliyin təmin edilməsi, şikayətlərə operativ baxılması, müvafiq istiqamətdə yönləndirilməsi kimi xidmətləri vətəndaşlar üçün əlçatan edən addımların atılması müvafiq sahənin tənzimlənməsinə yönəlik tədbirlərin həyata keçirilməsində mühüm rola malikdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində tibbi sığorta əsasında fəaliyyət göstərən tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsinin yeni təsdiq olunmuş qaydaları da həkimlərin və tibb işçilərinin fəaliyyətində stimul yaradacaq. Başlıca məqsəd nazirliyin tabeliyindəki tibbi sığorta əsasında fəaliyyət göstərən səhiyyə müəssisələrində çalışan işçilərin uyğun əməkhaqqı ilə təmin edilməsi, peşəkarlığının və səriştələrinin yüksəldilməsinə maraqlarının artırılması, səhiyyə işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və ölçülməsi əsasında onların əməyinin ödəniş sisteminin tənzimlənməsidir.

Hazırda Azərbaycanda dünyada kardiologiya və kardiocərrahiyyə sahəsində icra edilən bütün diaqnostik və müalicəvi prosedurlar həyata keçirilir. Bunu dünyanın tibb cəmiyyəti də təsdiqləyir. Xüsusilə qeyd etmək lazımdır ki, ölkəmizdə kardiologiya və kardiocərrahiyyə sahəsində görülən işlər azərbaycanlı mütəxəssislər tərəfindən icra edilir. Bu, Azərbaycanda kardiologiyanın uğurlu inkişafından xəbər verir.

Ölkəmizdə səhiyyə sahəsinin maddi-texniki bazası çox yüksək səviyyədə yaradılıb. İndi Azərbaycanda ən mürəkkəb əməliyyatlar aparılır, səhiyyə sistemimizin həm maddi-texniki təminatı, həm də keyfiyyəti böyük dərəcədə artır. Beynəlxalq qurumlar, xüsusilə Ümumdünya Səhiyyə Təşkilatı bu sahədə görülən işlərə yüksək qiymət vermişdir. Statistik göstəricilərdə də bu özünü göstərir, insanların ömrünün uzunluğu artır, uşaq və ana ölümü azalır. Bu, səhiyyə sisteminin əsas göstəricilərindən biridir. Çünki sağlam millət, sağlam cəmiyyət, əlbəttə ki, hər bir ölkənin inkişafı üçün çox vacibdir.

Naxçıvanın bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənəyə çevrilib. Muxtar respublikamızda kardiologiya və kardiovaskulyar cərrahiyyədə yeniliklər mövzusunda bu gün fəaliyyətə başlayan beynəlxalq konfrans da bu sahənin inkişafına mühüm töhfə olacaqdır. Təbii ki, konfransda mövzuların müxtəlifliyi kardiologiya sahəsinin aktual problemlərinin həlli yolunda yüksək səviyyədə müzakirələrin aparılmasına imkan verəcəkdir.

Bu gün Azərbaycan müasir, qüdrətli və dinamik inkişafa malik olan ölkə kimi tanınır. Bütün sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilir. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bütün istiqamətlərdə, o cümlədən elm, təhsil, səhiyyə sahələrində davamlı inkişaf müşahidə edilir. Xüsusilə də səhiyyə sahəsində uğurlu addımlar atılıb, bu sahənin inkişafı üçün bütün imkanlar yaradılıb. "Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır" prinsipi əsas götürülərək muxtar respublikada əhalinin sağlamlığının qorunması, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır.

*Müasir Azərbaycan səhiyyəsinin dinamik inkişafının memarı olan Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi digər sahələr kimi, səhiyyə sistemində də yeni uğurlara vüsət verib. Əminliklə demək olar ki, görkəmli dövlət xadiminin uzun illərə hesablanmış strategiyasının uğurla tətbiqi nəticəsində səhiyyə sistemini qarşıda daha böyük tərəqqi, nailiyyətlər gözləyir.*

**Ləman İBRAHİMOVA**
***"Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının sədri***

## Seminar keçirilib



Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kübra Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun Naxçıvana ezam olunan ixtisaslı həkimlərinin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzdə seminar keçirilib. Əvvəlcə mütəxəssislər Mərkəzin Anesteziologiya və reanimasiya şöbəsinin şəraiti və körpələrin vəziyyəti ilə tanış olublar.

Seminarda Perinatal Mərkəzin inzibati məsələlər üzrə direktor müavini Ülkər Bayramova çıxış edərək ixtisaslı həkimlərlə birgə fəaliyyətin əhəmiyyətindən danışıb.

Sonra institutun uşaq cərrahı Zülfiyyə Məmmədova, reanimatoloq-neonatoloqlar Aynurə İsmayılova və Leyla Həsənova çıxış edərək səfərin məqsədinin pediatriya sahəsində təcrübə mübadiləsinin aparılması olduğunu bildiriblər. Seminarda ağır patologiya ilə doğulan uşaqlara ilkin tibbi yardım, onların necə təxliyə olunması barədə fikir mübadiləsi aparılıb.

Seminardan sonra həkimlər Naxçıvan Muxtar Respublikası Xəstəxanasının Reanimasiya şöbəsində müalicə alan uşağın vəziyyəti ilə maraqlanıb, azyaşlının müalicəsi ilə bağlı konsulium keçiriblər. Üçgünlük işgüzar ezamiyyət çərçivəsində institutun reanimatoloq və neonatoloqları Perinatal Mərkəzdə doğuşda iştirak edib və uşaq cərrahının Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Uşaq Xəstəxanasında xəstə müayinəsi təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Bu gün gərək qəlbimizin hər duyğusu, hər vurğusu Vətən! – desin

*Köksünə sancılan oxla ayaqda qalan, uğrunda tökülən qanla qidalanan, əsir düşmüş, didərgin olmuş insanları bağrına basan, özünü sığınacaq edib onlara yurd olan, onlara nəfəs olan, özü nəfəssiz qalan uşağından-böyüyünə Qarabağ deyən dillərdə bir əfsanə Qarabağ yaşayır artıq. O artıq bizim qürur mənbəyimiz, inanc yerimiz, isti beşiyimiz, mərd oğulların qanından yoğrulmuş Vətən torpağıdır. Əsrlərdir, bu torpaq Qarabağın intiqamı üçün şərəf, namus, ləyaqət yetişdirib, torpağın qoynunda cücərtdi. Minlərlə ölən günahsız insanların qanı ilə ağarıb ağ günə çıxan Qarabağ "Dəmir yumruq" olub düşmənin başına, ox olub bağrına sancıldı.*




Xarıbülbül əsarətdən qurtulub Azərbaycan üçün cəsarət rəmzinə çevriləndə, babalar da baş qaldırdı məzar altdan. Bizim olanı özümüzə qaytarıb həsrəti vüsala çevirən ey qəhrəman qardaşlarımız, torpaqlarımızda azğınlaşan, at oynadan haram əlləri kəsib, torpaqlarımızı məhbəsdən azadlığa buraxdığınız üçün bu Vətən sizi heç zaman unutmayacaq. İllər keçsə də, tarixlər təqvimdən bir göz



qırpımında düşsə də, Qarabağ şəhidlərimizin qəhrəmanlıq dastanı, igidlik simvolu, xarıbülbülün duası olaraq xatırlanacaq. Axı necə xatırlanmaya bilər ki? Xarıbülbül susduğu illərlə cavab verdi tarixə, sizsə susmadığınız illərlə dinlədiniz onu. Xarıbülbül sizə illər ərzində neçə dəfə saralsa da, solmadığından; ləçəklərini necə duaya çevirdiyindən, bitdiyi yerə bağlılığından, Qarabağından danışdı... Siz isə onun bitdiyi yeri hər gün qanınızla necə suvardığınızdan danışdınız.

Daha adlarınızla yox, Vətən uğrunda axıtdığınız qanla tanınacaqsınız. Həriniz bir Şuşa, həriniz bir Əsgəran olub çiyin verəcəksiniz Xudafərinə, göz olacaqsınız Laçına. Zəngəzura ümid dolu yol, Araza həsrət dolu baxış, Hadruta sancılan bayraq olan ey şəhid qardaşlarım, sizi qoynuna alan yumruq boyda torpağınız varsa, siz ölməzsiniz. Tarix yaşadıqca siz yaşayacaq, bu Vətənin hər qayasında qeyrət, hər daşında ar olacaqsız... Bu yurdda yeni bədənlərdə, eyni ruhdan doğulanlar dolaşacaq...Vətən olub, vətənləşən; qan olub bayraqları bayraq edən, mavi səmalara yüksələn, Azərbaycan deyə hökm edən bayraq olacaq... Siz heç zaman ölməyərək, "Bayraqları bayraq edən üstündəki qan, torpaq uğrunda ölüb Vətəni Vətən edən olacaqsınız!!!"

Daha torpaq eşitməyəcək mərmi səsi, güllə səsi, lalədən, qərənfildən qan damlamayacaq. Daha analar övlad həsrəti çəkməyəcək, qız-gəlinlər qara bağlamayacaq. Daha nişanlı qızlar yorğan altda gildir-gildir göz yaşı tökməyəcək, səhəri yeni bir şəhid xəbəri ilə açmayacaq.

Hansı yara sağalmadı ki, məlhəmi torpaq, qucağı vətən olan?! Tarix yaraları, qanla yazılmış izləri unutmaz, öz daş yaddaşına həkk edib daşlaşar, tarixləşər. Şairin də dediyi kimi:

*Vətən! Səni səndən alıb belə*
*Yüz illərlə uyutdular.*
*Səni səndə ələdilər,*
*Səni səndə üyütdülər.*
*Dibək oldun öz duzunla, öz daşınla...*

Artıq quşlar da qıy vurur "Azadlıq!", "Azadlıq!" deyə... Natəvanın yarım qalmış misraları, Müşfiqin simi qırılmış, yasa batmış tar-kamanı, Xanı, Bülbülü, Üzeyiri, Rəşidi yenidən dünyaya gəlib. Şuşada, Kəlbəcərdə səslənən musiqilər, mahnılar, ətək-ətək sinəsinə yara vurulan dağları, daşları sağaldır indi. Cıdır düzündə Qarabağ atları şaxə qalxıb düşmənə "təpik" göstərir. Şuşada təkrarlanan tarix ananı balaya, övladı ataya, ən əsası da, torpağı torpağa qovuşdurub. Vətən nisgilli, Araz həsrətli Məmməd Araz sanki bu günü görür və 30 ildən artıq bir zamanda zamanı qabaqlayaraq yazırdı:

*Bu gün gərək*
*hər anımız Vətən! – desin*
*Qılıncımız, qalxanımız*
*Vətən! – desin*
*Ölənlərin əvəzinə*
*Qalanımız Vətən! – desin.*
*Vətən! – desin*
*Qəlbimizin hər duyğusu,*
*hər vurğusu*
*Vətən! – desin*
*Fərqi yoxdur harda olaq,*
*Zamanımız, məkanımız*
*Vətən! – desin*

Dalğalandığın yerdə nə qorxu, nə kədər var kölgəsinə sığındığım ay-ulduzlu and yerim. Füzulidən Murov dağına, Hadrutdan Kəlbəcərə, Laçından Şuşaya, Kəlbəcərdən Zəngilana şanlı tariximizi qanlarıyla torpağa yazaraq bizlərə əmanət edən din, dövlət, mülki-millət, istiqlal və istiqbalımız üçün canlarını fəda edən, ürəklərini sipər edən Odlar Yurdunun qəhrəman şəhidləri, siz ölməzsiniz, siz əbədisiniz. Ey mavi göylərin bəyaz süsü, qız bacımın gəlinliyi, şəhidimin son örtüyü. Dalğalanan ay-ulduzlu bayrağım, sənin dastanını oxudum, sənin dastanını yazıram. Yazıram, tarix şahid olsun ki, bir hilal uğruna, bir qarış Vətən torpağı uğruna nə günəşlər qürub etdi!

İndi birlik zamanıdır, eşq zamanıdır... Ruhunuzu candan qoparan mərmilərin caynaqlarından, hər gün üçrəngli bayrağa sarılıb, saçlarının bəyazında, üzlərin qırışında böyüyən candaşlarımızın otuzillik eşqinə qovuşduğu zamandır. Bu uğurda öz canlarından keçən candaşlarımız Vətən həsrətini özləri ilə üreyində, gözlərində haqq dünyaya apardı. Qanınızın son damlasını axıtdığınız o torpaqda artıq azan səsləri eşidildi, qələm əlimizdə partladı, cümlələr çiləndi yazımızda sözsöz... Artıq hiss edə bilirik o ağrının içindəki duyğunu! Sərhəddən keçən mərmiyə göz yummadığınız üçün, gözümüzdə Vətən böyüyüb dağ oldu. Artıq bu dağın zirvəsində "Azərbaycan" adlı Vətən oğulları tarix yazdı:

*Azərbaycan – qayalarda bitən bir çiçək,*
*Azərbaycan – çiçəklərin içində qaya.*
*Mənim könlüm bu torpağı vəsf eyləyərək,*
*Azərbaycan dünyasından baxar dünyaya.*

Torpaq uğrunda gedən döyüşlərdə, əslində, Vətən yenidən yaradılır, yenidən şəkillənir. Vətən adı gələndə insanın bütün hissləri bir nöqtəyə cəmlənir. Ən məhrəm hisslər, ən ümidsiz gözləntilər, ən uzaqdakı hədəflər birləşərək Vətən yaradır. Bir də Vətən yolu gözləyən saçı ömrünün baharında ağarmış əsgər analarının gözündə Vətən duyğusunu düşünək. Bu o qədər böyük bir duyğudur ki, onu bir qəlibə salıb düşməni hədəf alsaq, onların kökünü qurudub nəfəsini kəsər. Bu qəlibin arxa planında göz yaşı, hicran, ayrılıq dayanır. Ayrılığın mərkəzində isə ovuc-ovuc torpaq gətirən Vətən oğulları var. Əsgər yolu gözləmək səngərdən atılan qəlpələrin gözə batmasıdır, o duyğuları bağrına basıb bir ömür o xatirələrlə baş-başa yaşamaq, bomba üstündə ev tikib yaşamaq kimidir. Bu hiss o qədər təlatümlü, o qədər güclüdür ki, Çingizi öz məzarından qaldırır. Yenə könüllü bayraqlardan könlü bayraqlara xoş müjdə verərək filmlər çəkir, Azərbaycanın birlik dühasını dünyaya göstərir, yenə də filmin gücü dünyanı çalxalandırır.

Torpaq üçün "nəfəs" olan ey şəhid qardaşlarım, indi yaşayan, yeni dünya quran, ayaq basdığınız torpaqlara kök salıb həyat olan sizsiniz. Biz gördük, ey şəhid qardaşlarım, canından keçib torpağa can olanları...zəfər cənglərini...əbədiyyət uğurlarını. Sizlərsiniz öz bağınıza keşik çəkib bağban olan, torpağı qərənfillə, lalə ilə allandıran, Vətən oğulları, qeyrət simvolları. Bir dəfə can verib, hər zaman yaşayan, ey şəhid qardaşlarım!

Bizi qoynuna alan yumruq boyda torpağımız varsa, biz ölmərik. Yağış ətri gətirən küləklərə qoşulub Vətənimizə torpaq kimi səpilib, hər qayasında qeyrət, hər daşında ar olarıq. Bəlkə, vücudumuz himn, dua olub oxuya:

*Minlərlə can qurban olsa da,*
*Sinəmiz hərbə meydan olsa da,*
*Sən, hər zaman*
*Üçrəngli bayrağınla*
*Məsud yaşayacaqsan, Vətən!..*

**✍ Fariz ƏHMƏDOV**

## Sakinlərin problemləri dinlənilib



*Ordubad rayonunun qəsəbə və kəndlərində vətəndaşları narahat edən problemləri yerində öyrənmək, aidiyyəti dövlət qurumları ilə birgə onların həlli yollarını tapmaq məqsədilə Tivi və Nəsirvaz kəndlərinin sakinləri üçün növbəti səyyar vətəndaş qəbulu təşkil olunub.*

Naxçıvan Muxtar Respublikasında yaradılan səlahiyyətli nümayəndəlik institutunun yeni idarəetmə modeli kimi regionun sosial-iqtisadi inkişafında müstəsna rol oynadığını vurğulayan Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli gələcəkdə Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə birlikdə Ordubadın da beynəlxalq nəqliyyat şəbəkəsinə qoşulacağını, muxtar respublika barədə ilk təəssüratın yaranacağı bölgəyə çevriləcəyini qeyd edib. Rəcəb Rəhimli xatırladıb ki, sentyabrın 19-da ordumuzun apardığı lokal antiterror əməliyyatları uğurla nəticələnib. İcra Hakimiyyətinin başçısı Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə həlak olan şəhidlərin xatirəsinin hər birimiz üçün əziz olduğunu vurğulayıb.

Tivi və Nəsirvaz kəndlərinin sakinləri Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun əldə etdiyi növbəti zəfərə görə keçirdikləri böyük qürur hisslərini ifadə ediblər. Sonra sakinləri narahat edən məsələlər və onların təklifləri dinlənilib. İcra Hakimiyyətinin başçısı mövcud problemlərin həlli üçün aidiyyəti üzrə tapşırıqlar verib, Tivi kənd tam orta məktəbinin kollektivi ilə görüşüb, yaşayış məntəqəsində inşa edilən Şəhidlər abidəsi və "Narzan bulağı"nın tikinti və bərpa işləri ilə də maraqlanıb, şəhid Ramin Əliyevin məzarını ziyarət edib.

**Xəbərlər şöbəsi**

## İqtisadiyyat Nazirliyinin rəsmi internet saytı "gov.az" zonasına köçürülüb

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən hazırlanmış İqtisadiyyat Nazirliyinin elektron informasiya resursu *neconomy.gov.az* domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb.

Təhlükəsizlik və istifadəçi rahatlığını nəzərə alaraq sayt müasir proqramlaşdırma dillərindən istifadə edilərək yenidən hazırlanıb. Həmçinin "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün də müvafiq işlər görülüb. Yeni internet səhifəsinin domen ünvanı da müvafiq qaydada yenilənməklə "gov.az" doməninə bağlı e-poçt adresi ilə *(info@neconomy.gov.az)* təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## İlk dəfə iştirak etdiyi ölkə çempionatının mükafatçısı olub



Kikboksinq üzrə XXVII Azərbaycan çempionatı və birinciliyi keçirilib. Bakı İdman Sarayında reallaşan və üç gün davam edən yarış kadetlər (2010-2014-cü il təvəllüdlülər) və böyükləri (18-40 yaş) əhatə edib. Medallar uğrunda mübarizədə Azərbaycan Kikboksinq Federasiyanın üzvü olan klub və filiallardan, ümumilikdə, 700-ə yaxın idmançı iştirak edib. Lou-kik versiyasının qaydaları üzrə keçirilən görüşlərin A və B qrupları üzrə qalibləri finala vəsiqə qazanıb, qrup ikinciləri isə üçüncü yerə layiq görülüblər.

Naxçıvan Kikboksinq Federasiyasının 4 idmançısı ölkə çempionatında iştirak edib. Onlardan yalnız Aysu Həşimova mükafatçılar sırasına düşə bilib. Qadınlar arasında 60 kiloqram çəki dərəcəsində çıxış edən təmsilçimiz üçüncü yerə sahib çıxıb. Bu nəticə ilə Aysu ilk dəfə iştirak etdiyi ölkə çempionatını bürünc medalla tamamlayıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonunun Cəhri qəsəbəsində yaşamış Nuriyev Dilsuz İbrahim oğlunun adına olan JN-98 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Dostiyev Samir Kaxul oğlunun adına olan zabitin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 577